# Rayon icra hakimiyyətində növbəti onlayn müşavirə

İyunun 1-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən RİH aparatının məsul əməkdaşlarının, şəhər, qəsəbə və kənd inzibati ərazi dairələri üzrə nümayəndələrin iştirakı ilə videokonfrans formatında müşavirə keçirilmişdir.

Müşavirədə koronavirus (COVID-19) pandemiyası ilə bağlı rayondakı vəziyyət təhlil edilmişdir. Virusun ölkə ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunan karantin müddətinin 15 iyun 2020-ci il tarixədək uzadıldığı diqqətə çatdırılmış və bununla bağlı yerlərdə Nazirlər Kabineti yanında Operativ Qərargahın verdiyi tapşırıq və tövsiyələrin icrası vəziyyəti müzakirə edilmişdir.



Videomüşavirədə Prezident İlham Əliyevin rəhbərliyi altında vaxtında görülmüş qabaqlayıcı tədbirlər nəticəsində bu virusun ölkəmizdə geniş vüsət almadığı xüsusi vurğulanmışdır.

Sonda RİH-nin başçısı ölkədə koronavirus infeksiyasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin tələblərinə və həyata keçirilən tədbirlərə rayonumuzda əməl olunması ilə bağlı qüvvələrin bir daha səfərbər olunması istiqamətində müşavirə iştirakçılarına öz tövsiyə və tapşırıqlarını vermişdir.



"Qəbələ"

# Qəbələ Rayon İcra Hakimiyyətində vətəndaşların onlayn qəbulu keçirilmişdir



Mayın 22-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən vətəndaşların onlayn qəbulu həyata keçirilmişdir.

Qəbul zamanı vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər dinlənilmiş, onların bəzisi yerindəcə həll olunmuş, digərlərinin həlli istiqamətində müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti üzrə tapşırıqlar verilmişdir.

Qəbula gələn vətəndaşlar dünyanı bürüyən koronavirus (COVİD-19) pandemiyasının tüğyan etdiyi bir vaxtda onlara göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə etmişlər.



"Qəbələ"

# Şəffaf iqtisadi fəaliyyət dövlətin bütün güzəştlərindən bəhrələnməyi təmin etmişdir

İqtisadiyyatın ölkədə dinamik inkişafının təmin olunması ilə yanaşı son illər sahibkarlıq fəaliyyətinin və gəlirlərin tam şəffaflaşdırılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilməkdədir.

Dövlət tərəfindən bütün sahələr üzrə aparılan islahatlar və əhali üçün nəzərdə tutulan güzəştlər təbii olaraq "kölgə" iqtisadiyyatının miqyasının əhəmiyyətli dərəcədə kiçilməsinə və rəqabət mühitinin daha da yaxşılaşmasına münbit şərait yaratmış, dövlət-biznes münasibətləri daha sağlam əsaslar üzərində qurulmuş, bütün sahələrdə maliyyə intizamı yaxşılaşmışdır.

Koronavirus pandemiyası dövründə hazırlanan Tədbirlər planı buna mühüm nümunə ola bilər. Tədbirlər planında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə zərər çəkən sahələrdə iqtisadi aktivliyin dəstəklənməsinə 900 mln.manat birbaşa kompensasiya ödənişi ayrılmışdır.

Bu çərçivədə muzdlu işçilərin iş yerləri qorunmuş, zərər çəkən sahibkarlara maliyyə dəstəyi göstərilmiş, onlara geniş vergi güzəştləri tətbiq olunmuş, fəaliyyət sahələrinə ayrılan1,5 mlrd. manat bank kreditlərinə dövlət zəmanəti verilmiş və faizləri subsidiya edilmişdir.

Əhalinin sağlamlığının və təhlükəsizliyinin qorunması üçün ticarət, turizm, ictimai iaşə və s. sahələrdə xüsusi iş rejiminin tətbiqi və əhalinin sosial təcrid olunması ölkədə işgüzar fəallığa və iqtisadiyyatın əksər sahələrinin inkişafına mənfi təsirlər göstərsə də, Azərbaycan iqtisadiyyatında baş verə biləcək neqativ tendensiyaları qarşılamaq üçün sahibkarlığa dəstək tədbirlərinin gücləndirilməsi həyata keçirilməkdədir.

Ölkə başçısının sərəncamları ilə sahibkarlara dəstəyin gücləndirilməsi onlara yeni imkanlar yaradır. Ən çox mənfi təsirə məruz qalan turizm, hotelçilik, ictimai iaşə, əyləncə, nəqliyyat, ticarət və s. kimi 12 fəaliyyət sahəsi bu vəsaitdən səmərəli və şəffaf istifadə etməklə geniş maliyyə dəstəyinə nail olur.

Azərbaycan hökuməti tərəfindən vergi güzəştlərinin tətbiqi, sahibkarlığın kreditləşdirməsi şərtlərinin yumşaldılması, kiçik və orta sahibkarların dövlət tenderlərinə daha aktiv cəlb olunması, özünəməşğulluq proqramının genişləndirilməsi yeni təşəbbüsləri reallaşdırmaqdadır.

Sahibkarların sosial məsuliyyətinin daha da artırılması vacib olmaqla yanaşı, güzəştlərin tətbiqi zamanı şəffaf, vicdanlı, sosiallıq nümayiş etdirən biznes nümayəndələrinə üstünlük verilməsi çox zəruridir. Bu baxımdan iş yerlərini və məşğulluğu qoruyan, əmək müqavilələrinin xitamına, ödənişsiz məzuniyyətlərə yol verməyən və əməkdaşlarını ixtisar etməyən şirkətlərə əlavə vergi və gömrük preferensiyalarının verilməsi nəzərdə tutulmuşdur.

İstehlak kreditləri üzrə faizlərin bir hissəsinin subsidiyalaşdırılması ilə bərabər, yaranmış vəziyyətdə şəffaf iqtisadiyyatın vacibliyi bir daha aktualdır.

Respublikanın hər yerində olduğu kimi koronavirusa qarşı mübarizə aparılan belə həsas dövrdə qəbələli sahibkarlar da korporativ sosial məsuliyyət prinsiplərinə əməl etməli, sosial öhdəlikləri qarşılamalı və bütövlükdə həmrəylik nümayiş etdirməlidir.

"Qəbələ"